**5 fevral 1991-ci ildə Azərbaycan SSR Ali Soveti üçrəngli bayrağı dövlət rəmzi kimi rəsmən qəbul etdi. Bu tarix indi Dövlət Bayrağı Günü kimi qeyd olunur və ölkənin müasir tarixində mühüm bir mərhələ sayılır. Azərbaycan bayrağının tarixi bir əsrlik mübarizə, siyasi çalxalanmalar və suverenliyi qorumaq üçün xalqın sarsılmaz iradəsi ilə bağlıdır. XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin müstəqillik arzularından başlayaraq, Sovet hakimiyyəti dövrünün çətin illərinə və nəhayət, 1991-ci ildə yenidən qazanılan istiqlaliyyətə qədər üçrəngli bayraq həm çağırış, həm də milli qürurun sübutu olub.**

# Azərbaycanın azadlıq simvolu

9 noyabr 1918-ci ildə qəbul edilən dövlət bayrağı mavi, qırmızı və yaşıl üfüqi zolaqlardan, üstündə isə ağ rəngli aypara və səkkizguşəli ulduzdan ibarətdi. Hər bir rəng xüsusi məna daşıyırdı: mavi türkçülüyü, qırmızı müasirliyi və inkişafı, yaşıl isə islamı simvolizə edirdi. Aypara və ulduz türk dünyasının ümumi rəmzləri kimi xalqın mənəvi-mədəni kimliyini vurğulayırdı. 1920-ci ildə Azərbaycan Sovet qoşunları tərəfindən işğal olunsa da, bu bayraq xalqın yaddaşında yaşadı. Sovet hakimiyyəti illərində milli rəmzlərin nümayişi qadağan olunsa da, üçrəngli bayraq xalqımızın mübarizlik simvolu oldu. 1980-ci illərin sonunda SSRİ-nin dağılması ərəfəsində müstəqillik tələbləri alovlandı və Azərbaycan bu prosesin ön sıralarında yer aldı.

1989-cu ildən etibarən erməni separatçılarının və Moskvanın dəstəyi ilə "Dağlıq Qarabağ"ın ilhaqına yönəlmiş cəhdləri Azərbaycanda kütləvi etirazlara səbəb oldu. Bu gərgin şəraitdə Naxçıvan milli ruhun dayağına çevrildi. 19 yanvar 1990-cı ildə Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Soveti Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını bərpa etmək qərarına gəldi. Azərbaycan SSR Ali Soveti bu addımı səkkiz gün sonra ləğv etsə də, 17 noyabr 1990-cı ildə Naxçıvan Ali Məclisi Heydər Əliyevin sədrliyi ilə üçrəngli bayrağı muxtar respublikanın rəsmi rəmzi elan etdi.

1990-cı ilin yanvar hadisələrindən sonra müstəqillik uğrunda mübarizə daha da gücləndi. Nəhayət, 5 fevral 1991-ci ildə Azərbaycan SSR Ali Soveti "Dövlət bayrağı haqqında "Qanun" qəbul etdi. Bu qərar həm rəmzi əhəmiyyət daşıyır, həm də sovet ideologiyasından hüquqi ayrılığı bildirirdi. Bayrağın rəngləri yenidən şərh olundu: mavi - türk birliyini, qırmızı - demokratiya və inkişafı, yaşıl isə islam köklərini ifadə edirdi. Aypara və ulduz isə müasirliyin və maariflənmənin simvolu idi. 18 oktyabr 1991-ci ildə Azərbaycan parlamenti "Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul edərək Azərbaycan Respublikasını Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdi və üçrəngli bayraq yenidən müstəqil dövlətin simvoluna çevrildi.

Dövlət atributlarının təsbit edilməsi Heydər Əliyevin siyasi strategiyasının ayrılmaz hissəsi idi. Ulu öndər 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra bayrağın ictimai həyatdakı rolunu gücləndirdi, üçrəngli bayrağımız hökumət binalarında, beynəlxalq tribunalarda dalğalandı. Bayrağın istifadəsi ilə bağlı qanunvericilik təsbit edildi, hərbi mərasimlərdə, diplomatik görüşlərdə və mədəni tədbirlərdə onun tətbiqi vacib hala gətirildi. 2003-cü ildən etibarən Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin göstərişi ilə Bakıda 162 metr hündürlüyündə dünyada ən hündür bayraq dirəyi olan Milli Bayraq Meydanı inşa edildi.

2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində ölkə başçısı Dövlət Bayrağının xüsusi əhəmiyyətini vurğulayaraq demişdir: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət Bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra Milli Dövlət Bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan Bayrağına!". Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncamla hər il noyabrın 9-u ölkədə Dövlət Bayrağı Günü kimi qeyd edilir.

2016-cı ilin aprelində şanlı Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatı nəticəsində Azərbaycan Bayrağını Lələtəpə yüksəkliyinə sancdı. Bundan sonra Dövlət Bayrağımız işğaldan azad olunmuş, insanların təhlükəsiz yaşaması təmin edilmiş Cocuq Mərcanlıda dalğalandı. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Cocuq Mərcanlı qısa müddətdə bərpa olundu və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasının icrasına başlanıldı. 2016-cı ilin Aprel döyüşləri zamanı azad edilmiş kəndlərdə bayraq dalğalandıran əsgərlərin şəkilləri 1918-ci il ADR dövründə çəkilmiş fotolarla müqayisə edilirdi.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2021-ci il yanvarın 15-də Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltmış və hərbçilərlə görüşündə demişdir: "Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılanda mən çıxış edərkən demişdim ki, gün gələcək və Azərbaycan Bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaqdır. Bax, bu gün gəldi. Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan Bayrağı dalğalanır".

"Eurovision-2012", "Formula-1" Azərbaycan Qran-Prisi", "COP29" kimi beynəlxalq tədbirlərin təşkili zamanı Azərbaycan bayrağı ölkənin beynəlxalq aləmdə müasir və sabit dövlət kimi tanıdılmasında mühüm rol oynayıb.

Məktəblərdə şagirdlər ADR-in irsi haqqında məlumat alır, şəhər meydanlarında Qarabağ müharibələrinin veteranları öz xatirələrini bölüşürlər. İlham Əliyevin bayram günlərində etdiyi çıxışlar adətən bayrağı dövlət nailiyyətləri ilə əlaqələndirir: enerji layihələri, hərbi qələbələr və mədəni uğurlar bu rəmzlə bağlanır. 2020-ci ildə ADR bayrağının 100 illiyi qeyd edilərkən, Azərbaycan Prezidenti üçrəngli bayrağı və Şuşanın təsvirini əks etdirən poçt markasını təqdim etdi.

Azərbaycanın üçrəngli bayrağı xalqın mübarizə salnaməsidir. ADR dövründən başlayaraq müasir dövlət quruculuğuna qədər bu bayraq işğallara, müharibələrə və siyasi dəyişikliklərə sinə gərib. Üçrəngli bayrağımız xalqımızın taleyini əks etdirir: xarici təzyiqlərlə üzləşən, lakin heç vaxt öz müstəqillik yolundan dönməyən bir xalqın simvoludur. Bu gün Azərbaycan qlobal siyasətdə tarazlığı qoruyaraq müasir çağırışlara çevik cavab verir. Üçrəngli Dövlət Bayrağmız bütün bu proseslərin fonunda hökumət binalarında, Qarabağda və İstanbuldan Los-Angelesə qədər dünyanın hər yerində qürurla dalğalanır.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 5 fevral (№25).- S.5.